# Ermənistan silahlı qüvvələrinin xeyli sayda silah-sursatı, hərbi texnikası ələ keçirilib və məhv edilib

**Şanlı Azərbaycan Ordusunun daha bir uğurlu əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin xeyli sayda tank və PDM-ləri ələ keçirilib. Erməni təxribatına qarşı ordumuz tərəfindən hərbi əməliyyatlar uğurla davam etdirilir.**







Oktyabrın 8-də Azərbaycan əsgəri düşmənə bir daha ağır zərbə vurub. Hərbçilərimiz qarşısında aciz qalan ermənilər texnikalarını ataraq qaçıblar. Nəticədə 30-a yaxın tank və piyada döyüş maşınları (PDM) ələ keçirilib. Texnikalar işlək vəziyyətdədir.

Qeyd edək ki, sentyabrın 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Dinc sakinlər hədəfə alınıb, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyib. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Azərbaycan.-2020.-10 oktyabr.-S.7.